Ozarbayjon Davlat Pedagogika universiteti, "Zamonaviy Ozarbayjon Tili" kafedrasi katta o'qituvchisi, t. F. N. Hasanova Kenul israfilovna taqrizi ostida

Ahile Ibrahimova Rafiq
Ozarbayjon Davlat Pedagogika Universiteti, Zamonaviy Ozarbayjon Tili kafedrasi katta o'qituvchisi, Fil.Yu.f.dok.
Pochta: sahila.ibrahimova@yahoo.com
Orcid ID:0009-0008-6960-524x
Tel.+994503031712

**Sahilə İbrahimova Rafiq**
**Azərbaycan Dövlət Pedaqoji Universiteti,**
**Müasir Azərbaycan dili kafedrasının baş müəllimi, fil.ü.f.dok.**
**Mail: sahila.ibrahimova@yahoo.com**
**Orcid ID:0009-0008-6960-524x**
**Tel.+994503031712**

**Azərbaycan dövlət Pedaqoji Universiteti, "Müasir Azərbaycan dili" kafedrasının baş müəllimi, fil.ü.f.dok. Həsənova Könül İsrafil qızının rəyi ilə**

## NİSBİ SÖZLƏR ANLAYIŞI

**Annotasiya:** Məqalədə nisbi sözləri mahiyyəti açılır, bir sıra dillərdə bu kateqoriyaya münasibət açıqlanır, dilin qrammatik quruluşunda nisbi sözlərin yeri aydınlaşdırırlır, onların struktur-semantik tipləri (sadə və tərkibi) müəyyənləşdirilir, nisbi sözlərin bağlayıcılardan fərqli əlamətləri onların mürəkkəb cümlənin komponentləri arasında yaratdığı əlaqə misallar əsaında tədqiq edilir.

**Açar sözlər**: nisbi sözlər, işarə əvəzlikləri, sadə nisbi sözlər, tərkibi nisbi sözlər, asılı komponent.

## THE CONCEPT OF RELATIVE WORDS

**Annotation:** The article deals with the essence of relative words, considersview on this category of words in various languages, and reveals the place of relative words in the grammatical structure of the language. The author investigates illustrates with examples the distinctive features between relative words and conjunctives.

**Keywords**: Relative words, demonstrative pronouns, simple relative words, composite relative words, dependent component.

Müasir Azərbaycan dilinin qrammatikasında nisbi sözlər var ki, çox az araşdırılıb, geniş öyrənilməmiş və bu barədə ədəbiyyatlarda az məlumat tapmaq olar. Ona görə də araşdırılması vacib olan məsələlərdən biri hesab etmək olar.

Bu məsələ bağlı məsələ ətraflı tədqiq olunmadığına görə  nisbi sözlər ilə bağlı dilçilər arasında fikir ayrılıqları hələ də var.

Müasir Azərbaycan dilində "nisbi" sözü "müqayisə üçün olan, qiyas və müqayisə ilə olan, başqa bir şey (şərait, vəziyyət və s.) ilə müqayisə edilməklə müəyyənləşdirilən mənasında işlədilir (1,

s.492). Dilçilikdə bu termini “relyativ” sözündən də istifadə edilir. “Nisbi” sözü qrammatikanın aşağıdakı anlayış terminologiyasında da öz yerini tapmışdır: nisbi şəxsli cümlələr, nisbi şəxssiz cümlələr, nisbi xronologiya, nisbi sual əvəzliyi, nisbi vaxt, nisbi əvəzliklər, nisbi zərflərlə qurulan cümlələr və s.

“Nisbi sözlər“ həm sintaktik, həm də morfoloji fikir kimi anlaşılır. Bu anlayışa münasibət müxtəlifdir. Nisbi sözlər isim, sifət, əvəzlik, zərf, bağlayıcı qrupunu aid olduqda morfoloji kateqoriya, cümlə üzvü kimi, budaq cümləni baş cümləyə bağlayan vasitə kimi iştirak edəndə isə sintaktik kateqoriya kimi özünü göstərir. Nisbi sözlərlə bağlayıcı sözlər sinonim kimi işlədilir. Onu da deyək ki, “nisbi əvəzliklər” birləşməsi də göstərilən birləşmələrin məna yaxınlığını göstərir. Beləliklə, “xüsusi əvəzlilər” “əvəzlikləşmiş zərflər” ifadələrindən də istifadə edilir.

M.Hüseynzadə müasir Azərbaycan dilində əvəzliklərin 7-ci növünün nisbi əvəzliklər olduğunu qeyd edir. Və yazır ki, nisbi əvəzliklər sual əvəzliklərindən sintaktik funksiyasına görə fərqlənir. Onların morfoloji adı nisbi əvəzlik, sintaktik adı isə bağlayıcı sözdür (5, s.131).

Nisbi sözlərin geniş fəaliyyət dairəsi mövcuddur. Bu funksional imkanlar kitab şəkildə öyrənilməmişdir. Yalnız qrammatika kitablarında bu və ya digər baxımdan toxunulmuşdur.

Türk dillərindən bəhs olunan tədqiqatlarda da “nisbi əvəzlik” termininə rast gəlmək olur. Məsələn, N.K.Dmitriyev təyin budaq cümləsi barəsindən danışarkən “rus nisbi əvəzliyi” termininin ismin müxtəlif hallarında işləndiyini göstərir. (4,s.252).

Ə.Abdullayev tabeli mürəkkəb cümlələrin qurulmasında bağlayıcı sözlərin (nisbi əvəzliklərin) roluna aydınlıq gətirib. Müəllif yazır ki, tabeli mürəkkəb cümlənin komponentlərini bağlamaqda bağlayıcı sözlərin xüsus rolu vardır. Bu sahədə də türkologiyada fikir aydınlığına rast gəlmək olur.

Q.Kazımov qeyd edir ki, başqa hallarda bağlayıcı ilə yanaşı, budaq cümlənin baş cümlədə yerliyi, qəlibi olur. Qəlib sözlər yalnız işarə əvəzliklərindən və işarə əvəzliyi köklü bəzi zərflərdən (o, bu, ora, bura, elə, belə) ibarət olur. Mənşə etibarilə sual əvəzlikləırindən ibarət olduğu üçün formaca onlardan fərqlənmir. Ona görə də nisbi əvəzliklər sintaksisdə bağlayıcı söz adlanır (6, s.170)

M.Hüseynzadə də demək olar ki bu cür yanamışdı. Onlar haqqında belə izahat vermişdir: “Nisbi əvəzliklər sual əvəzliklərindən sintaksik funksiyalarına görə fərqlənir. Onların morfoloji adı nisbi əvəzlik, sintaktik adı isə bağlayıcı sözdür” (5, s. 131). Hesab edilir ki, bu əvəzliklər sual cümlələrində sual əvəzliyi kimi işlədilirsə, sual əvəzliyidir, lakin tabeli mürəkkəb cümlələrin formalaşmasında köməkçi vasitələr kimi işlənirsə, demək ki, nisbi əvəzliklərdir.

A.M.Şerbak ümumən türk dillərini nəzərdə tutaraq yazır “Nisbi əvəzliklər sual əvəzlikləırinin xüsusləşməsi və funksional cəhətdən dəyişməsi yolu ilə meydana gəlmişdir”. K.J.Maytinskaya isə yazır ki “Bir çox Hind-Avropa dillərində olduğu kimi, bir sıra fin-uqor dillərində indi də xüsusi nisbi əvəzliklər yoxdur” (7, s.302-303)

Ə.Abdullayeva fikrinə əsasən tabeli mürəkkəb cümlələrin bir qismi bağlayıcı sözlərin köməyi ilə təşkil olunur. Bağlayıcı sözlərə nisbi sözlər də deyilir. Müəllif belə sözlərin bağlayıcıdan fərqli cəhətlərinin aşağıdakıdan ibarət olduğunu göstərir:

1.Bağlayıcılar köməkçi sözlər qrupuna daxil olduğu halda, bağlayıcı sözlər müstəqil sözlərdən hesab edilir. Bunlar (bağlayıcı sözlər) əvəzliyin müəyyən növündən-nisbi əvəzliklərdən ibarətdir.

Bunlardan bir qismi isim, bir qismi sifət, bəziləri say, bəziləri yer zərfi, bəziləri zaman zərfi, bəziləri kəmiyyət zərfi, bəziləri tərzi hərəkət zərfi mənalarına malikdir.

2.Müstəqil nitq hissələrindən olduğu üçün, bağlayıcı sözlər cümlədə müəyyən üzv vəzifəsində işlədilir. Halbuki bağlayıcılar cümlə üzvü vəzifəsində işləyə bilmir (1, s.115).

Bağlayıcı sözlər budaq cümlədə işlənərək, tabeli mürəkkəb cümlə düzəltməyə şərait yaradır. Belə cümlələrdə budaq cümlənin xəbəri əksər halda şəkilçiləşmiş -sa//sə şərt ədatı qəbul etmiş olur (3, 326-327).

Ümumiyyətlə əvəzlik və o cümlədən işarə əvəzlilkləri müəyyən şəxs, əşya, hadisə ilə əlaqələnməyincə konkret heç bir şey ifadə etmir. Ona görə də bu cür sözlıər baş cümlədə bu və ya digər bir üzvün yerini tutsa da, heç bir məna ifadə etmir. Lakin bunların cümlədə böyük rolu var. Bunlar baş cümlədə məntiüi vurğu ilə tələffüz edilir və aktuallaşdırılmış olur, konkret məna ifadə etməsə, dinləyəni bsşs dslır ki, baş cümlədən sonra budaq cümlə gəlmıəsi məhz həmin sözün - əvəzlik qəlibin mənasını izah edib aydınlaşdırmalıdır. Deməli, əslində, “baş cümlə+budaq cümlə” quruluşlu tabeli mürəkkəb cümlələrdə baş cümlə temadan ibarət olsa da, onun içərisində rüşeym şəklində rema- “yeni” verilmiş olur, lakin yeni məna bütövlükdə budaq cümlə vasitəsilə açılır və ona görə də ümumilikdə baş cümlə temadan, budaq cümlə isə remadan ibarət olur (5, s.310).

Tatar dilində bağlayıcı sözlə nisbi sözlər fərqləndirilir. Bağlayıcı sözlər (союзные слова) ayrı, nisbi sözlər (относытельные слова) başqa başlıqlar altında şərh olunur (8, s.338-351).

*Müasir Azərbaycan dilində işlənən bağlayıcı sözlər əsasən bunlardır: kim (ki), nə ki, hər kim ki, hər nə ki, hər kəs ki, nə vaxt ki, nə zaman ki, havaxt ki, haçan ki, hara, hansı, necə, necə ki, nə cür, nə qədər ki, hər nə qədər ki və s.*

Budaq cümlələrin əmələ gəlməsində bağlayıcı sözlərin hər birinin öz forması vardır. Məsələn, mübtəda budaq cümləsində budaq cümlə baş cümlədən əvvəl gəlir və ona kim, hər kim, hər kəs, nə, hər nə və s. bağlayıcı sözlərlə bağlanır. Bağlayıcı sözlərə uyğun olaraq, baş cümlədə mübtəda funksiyasında qarşılıq ifadə edən o, bu sözlərindən biri budaq cümlə vasitəsilə izah olunur.

Ümumi olaraq qeyd edə bilərik ki, türk dillərinin qrammatik quruluşunda nisbi sözlər əsas yer tutur. İşarə əvəzlikləri türk dillərinə məxsus cümlələrdə böyük yük daşıyır və bu cəhət türk dillərini Hind-avropa dillərinə məxsus nisbi sözlərin mürəkkəb konstruksiyaların baş hissəsində budaq cümlə ilə əlaqə yaratmasıdır. Nisbi sözlər baş və budaq cümlələr arasında əlaqələr yaradan element kimi özünün göstərir.

Nisbi sözlər bir sıra spesifik xüsusiyyətlərə malikdir.

1.Mürəkkəb konstruksiyaların hissələri arasında əlaqə nisbi sözlərin köməyi ilə yaradılır.

2.Nisbi sözlər Azərbaycan dilində işarə, təyini əvəzlikləri, bəzi saylarla ifadə olunur. Nisbi söz kimi bunun, buna, bunu, bundan, bunda, bu qədər və s. iştirak edir.

Nisbi sözlər Azərbaycan dilində sual əvəzlikləri ilə də ifadə olunur.

Nisbi sözlər mürəkkəb cümlənin komponentləri arasında əlaqəni yerinə yetirir, həyata keçirir və cümlə üzvü kimi çıxış edir. Bu funksiya nisbi sözün budaq cümlədə qazandığı sintaktik funksiyadır. Burada xəbərin, tamalığın funksiyaları müəyyənləşdirilir.

Nisbi sözlər öz strukturuna görə 2 qrupa ayrılır: 1)sadə nisbi sözlər; 2)tərkibi nisbi sözlər.

Sadə nisbi sözlər bir leksik vahiddən ibarətdir.

Tərkibi nisbi sözlər əvəzliklər və zərflərin üzərinə bağlayıcı və bağlayıcı sözlər əlavə olunmaqla düzəlir, bəzən ədatların da əlavə olunması ilə əmələ gəlir. Ondan ötür, onun üçün və s.

Nisbi sözlər kauzativ konstruksiyaların yaranmasında fəal iştirak edir: buna görə, bunun üçün, onun arxasında, bunun arxasında, bu səbəbə, o səbəbə, o dərəcədə, bu dərəcədə, bu qədər və s.

Nisbi sözlərin işlənmə dairəsi və müəyyən sözlərə birləşib müxtəlif məna yaratmaq imkanı geniş olduğu üçün rəngarəng tipli budaq cümlələrin formalaşmasında onların rolu olduqca böyükdür. Həmin sözlər vasitəsilə mübtəda, xəbər, tamamlıq, təyin və zərflik budaq cümlələri baş cümləyə bağlana bilir.

Beləliklə, nəticə kimi qeyd edə bilərik ki, nisbi sözlərin taç şəkildə araşdırılması dilin morfoloji və sintaktik quruluşu arasındakı olan münasibəti daha dərindən öyrənməyə imkan və şərait yaradır.

Beləliklə, bağlayıcı sözlər bütöv cümlənin sintaktik funksiyasını təyin etməyi tələb etmir, bu rol nisbi sözlərin öhdəsinə buraxılır, ya da nisbi sözlərin üzərində qalır. Komponentlırin bağlanmasında iştirak edən nisbi sözlər işlənmə yerinə və tərəflər arasında əlaqə qurma üsuluna görə bir-birindən fərqlənir.

**İstifadə edilmiş ədəbiyyat**

1. Abdullayev Ə. Müasir Azərbaycan dilində tabeli mürəkkəb cümlələr. Bakı, “Maarif”, 1974 (6...)

2. Azərbaycan dilinin izahlı lüğəti, dörd cilddə, III cild, Bakı, Şərq-Qərb, 2006

3.Azərbaycan dilinin qrammatikası. II hissə, sintaksis, EA nəşriyyatı, ,Bakı 1959

4.Дмитриев Н.К. Грамматика башкирского языка. ИЗД. АН СССР, М., 1948

5.Hüseynzadə M. Müasir Azərbaycan dili. Morfologiya. III hissə, Bakı, 2000

6.Kazımov Q. Masir Azərbaycan dili, Morfologiya, Bakı, Elm və təhsil, 2014

7.Seyidov Y. Azərbaycan dilinin qrammatikası, Morfologiya, Bakı, Bakı Universiteti, 2000,

8.Татарского грамматика. Морфология. Казань Татарское Книжное Издательство, 1993